# İşgüzar konfrans



Azərbaycan Respublikasının Prezidenti Yanında Bilik Fondunun təşkilatçılığı ilə ölkənin bir qrup alimi və professor-müəllim heyəti noyabrın 7-də "Qafqaz Albaniyasının intibahı" layihəsi çərçivəsində tanışlıq məqsədi ilə Qəbələ rayonuna gəlmişdir. Qəbələ Mədəniyyət Mərkəzində keçirilən Konfransı giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açaraq iştirakçıları salamladı.

Respublika Bilik Fondunun əməkdaşı Hacı Abdullayev Qafqaz Albaniyasının zəngin tarixi, bu tarixin gənclərə öyrədilməsi barədə ətraflı məlumat verdi. Rayon icra hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov Qafqaz Albaniyasının tarixi kökləri, AMEA, Arxeologiya və etnoqrafiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Mübariz Xəlilov bu sahədə aparılan tədqiqat işlərindən, AMEA, Memarlıq və İncəsənət İnstitutunun elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qaradağlı Qafqaz Albaniyasının memarlıq xüsusiyyətlərindən söz açdılar.

Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova Fəridə Məmmədovanın və Ziya Bünyadovun Qafqaz Albaniyası ilə bağlı tədqiqatlarından danışdı. Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov Qafqaz Albaniyasında aparılan arxeoloji qazıntılar, tarixi eksponatlar və nadir tapıntılar haqqında bilgilər verdi. Bilik Fondunun Qəbələ Rayon üzrə nümayəndəsi Təranə Səlimova Qafqaz Albaniyası ilə bağlı tarixi həqiqətlərin öyrənilməsi və təbliği istiqamətində rayonda görülən işlərdən, bu mənada Qəbələ ziyalılarının üzərinə düşən vəzifələrdən danışdı.

Sonra qonaqlar rayonun tarix-mədəniyyət abidələri ilə yaxından tanış olmuşlar. Onlar səfər çərçivəsində rayon tarix-diyarşünaslıq muzeyində və Nic qəsəbəsindəki "Çotari" udi-alban kilsəsində oldular.

**Oqtay MƏMMƏDOV.**
**Foto İ. Vəlizadənindir.**

# "Region gənclərinin könüllülüyə cəlb olunması" layihəsi çərçivəsində tədbir



Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində "El Gücü" Beynəlxalq Humanitar Asossasiyası İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Region gənclərinin könüllülüyə cəlb olunması" layihəsi çərçivəsində tədbir keçirilmişdir. Tədbir iştirakçılarına könüllü fəaliyyət haqqında müqavilə, "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, QHT-də könüllülərin iştirakı, könüllülük psixologiyası, motivasiya, kütlə qarşısında uğurlu çıxışın texnikaları və s. haqqında geniş məlumat verilmişdir.

Sonda iştirakçıları maraqlandıran mövzular ətrafında müzakirələr aparılmışdır.

**«Qəbələ».**

*17 noyabr Milli Dirçəliş Günüdür*

# Xalqımızı müstəqilliyə aparan yol

Hər il noyabr ayının 17-i dövlətimiz və xalqımız tərəfindən «Milli Dirçəliş Günü» kimi qeyd edilir. Bu günün tarixi 1988-ci il 17 noyabrla bağlıdır.Həmin gün xalq Bakı şəhərində Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı kütləvi etiraz səsini qaldırıldı. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində başlamış erməni separatizmini və terrorunu dəstəkləyən, ermənilərin Azərbaycana qarşı torpaq iddialarına rəvvac verən, Azərbaycan xalqının hüquq və mənafelərini qorumayan bir rejimə qarşı kütləvi xalq hərəkatı məhz 17 noyabrda başlandı. 17 noyabr tarixində xalqımız bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o, azad olmağa layiq xalqdır.

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ-də baş verən ictimai-siyasi proseslər nəticəsində Azərbaycanın müstəqillik qazanması üçün geniş imkanlar yaranmışdı. Ermənistanda və Dağlıq Qarabağda azəri türklərinə qarşı yönəldilmiş soyqırım sovet ordusu tərəfindən dəstəklənirdi. Təpədən-dırnağadək silahlanmış erməni quldurları əliyalın, dinc əhalini müdhiş bir amansızlıqla qətlə yetirirdilər. Qaniçən vəhşilər heç kimə: qocalara, köpələrə, hətta hamilə qadınlara belə aman vermirdilər. Öz vəzifə kreslosunu qoruyub saxlamaq naminə Moskva qarşısında yaltaqlanan o zamankı kommunist rəhbərliyi xalqın və vətənin hüquqi mənafeinin keşiyində dura bilmədi;

Bütün bu ədalətsizliklərə və ərazi bütövlüyünə edilən qəsdlərlə razılaşmayan Azərbaycan xalqı 17 noyabrda ayağa qalxdı. Həmin günlərdə « Meydan hərəkatı» adını almış bu hərəkatla Sovet müstəmləkə rejimi şəraitində repessiyalara məruz qalmış milli şüur yenidən oyandı, özünüdərkə doğru bir dönüş başlandı.

Xalq hərəkatı təkcə Bakıda deyi, Naxçıvan, Gəncə və Lənkəranda da kütləvi xarakter aldı. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı. Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Komendant saatı tətbiq olundu. Lakin xalq geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Dağlıq Qarabağda erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlayan «Meydan hərəkatı» tezliklə Azərbaycanın müstəqilliyinə çağıran şüarlara keçdi. Meydanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəncğli, ay-ulduzlu bayraqları dalğalandı.

Lakin qüvvələr hələ qeyri-bərabər idi. İmperiya daxildən laxlasa da, hərbi iqtidardan düşməmişdi. Qüvvələri gələcək azadlıq mübarizəsi üçün qoruyub saxlamaq lazım gəlirdi. Dekabrın 4-dən 5-nə keçən gecə Sovet ordusu «Meydan hərəkatı»nı yatırmağa nail oldu. Minlərlə azadlıqsevər insanlar həbs edilərək zindanlara salındı. Lakin xalqın mübarizə əzmini qırmaq mümkün deyildi

Azərbaycanın müstəqilliyinə doğru uzanan yol 17 noyabrdan-Azadlıq meydanından başlanırdı. Az sonra tarix öz sözünü dedi, Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. 17 noyabr isə xalqın milli azadlıq hərəkatının başlanğıc günü--Milli Dirçəliş günü kimi qeyd olunmağa başladı.

**Aslan CƏLİLOV.**

# Qanvermə aksiyası təşkil olunmuşdur



Rayon mərkəzi xəstəxanasında qanvermə aksiyası keçirilmişdir. Aksiyada 247 nəfər könüllü iştirak etmiş, 80 litrə yaxın qan tədarük edilmişdir.

Tədarük olunan qanın talassemiyalı və digər qan xəstəliyi olan şəxslərə köçürülməsi nəzərdə tutulmuşdur.

Aksiyanın mütəşəkkil keçirilməsində rayonun əmək kollektivləri üstünlük təşkil etmişlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin ETHQ-nın mütəxəsis briqadası tərəfindən

**Foto İ. Vəlizadənindir.**

*Dövlət İdarələri İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı üzvlərini Dövlət Bayrağı Günü və Konstitusiya Günü münasibəti ilə təbrik edirik.*

***Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Qəbələ Rayon Komitəsi.***

# Məktəblilərin şahmat yarışı

7 noyabr 2015-ci il tarixdə Vəndam qəsəbə sənətkarlıq evi qəsəbə 1 saylı tam orta məktəbi ilə birlikdə məktəbdə Dövlət Bayrağı Günü münasibətilə 5 və 6-cı sinif şagirdləri arasında şahmat yarışı keçirmişlər. Yarışlarda fərqlənən uşaqlardan Nuray Nürəddinli, Aysu Salmanova, Aqşin Daşdəmirov, Aysu Mikayılova, Kamran Qasımov, Sahilə Mikayılova, Çiçək Mehralıyeva fərqlənmiş, şahmat məktəbinin hədiyyələrini qazanmışlar.

Şahmat dərnəyinin rəhbəri Məmmədrahim Məmmədov yarış iştirakçılarını Dövlət Bayrağı Günü münasibətilə təbrik etmiş və onlara gələcəkdə ölkəmizin layiqli idmançıları olmağı arzulamışdır.

**Azər AZAYEV,**
**Vəndam qəsəbə sənətkarlıq evinin direktoru.**